## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişikliklər edilməsi barədə

## Azərbaycan respublikasının Nazirlər Kabinetinin
## Qərar № 134

**Bakı şəhəri, 10 aprel 2017-ci il**

“Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951, №12, maddə 1653; 2015, № 5, maddə 615; 2016, № 10, maddə 1727) ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.6.2-ci və 2.6.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“2.6.2. gömrük borcu gömrük bəyannaməsi təsdiq edilənədək və ya gömrük bəyannaməsinin təsdiqi ilə eyni vaxtda ödənilmirsə, gömrük borcuna görə təminatın verilməsini təsdiq edən sənəd;

2.6.4. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı və ya prekursorların idxalı, tranziti və ixracı zamanı lisenziya;”;

1.2. 2.6.5-ci yarımbənd ləğv edilsin;

1.3 2.6.8-ci yarımbənddən “, ixrac edildikdə isə fitosanitar sertifikatı” sözləri çıxarılsın;

1.4. 2.6.9-cu yarımbənd ləğv edilsin;

1.5. 2.6.13-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.6.13. mallar gömrük ərazisinə idxal edildikdə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş “Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları”nın 10.1-ci bəndində göstərilən hallarda mənşə ölkəsini təsdiq edən sertifikat.”.

**2.** Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Yaqub Eyyubov,**

**Azərbaycan Respublikası**
**Baş nazirinin birinci müavini**